# AZƏRBAYCANIN NƏQLİYYAT-LOGİSTİKA SİSTEMİNİN QLOBAL ASPEKTLƏRİ

**Şəfa Tiflis ƏLİYEV**
Sumqayıt Dövlət Universitetinin professoru, iqtisad elmləri doktoru,
UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzinin Rəhbəri.
AZ5008, Azərbaycan, Sumqayıt şəhəri 43-cü məhəllə, Bakı küç.1
E-mail: shafa.aliyev@sdu.edu.az

***Received:*** *23 April 2026* ***Revised:*** *25 Mai 2026* ***Accepted:*** *25 June 2026*

**UOT:** 338.47 **JEL:** L90; O14 **DOİ:**https://doi.org/10.32010/MVSB7214

**Xülasə. Tədqiqatın məqsədi** – Məqalədə Azərbaycanın nəqliyyat-logistika sisteminin qlobal aspektləri baxılmışdır. Nəqliyyat-logistika sisteminin ölkə iqtisadiyyatında rolu və əhəmiyyəti araşdırılmışdır. Azərbaycanın son illərdə nəqliyyat-logistika sferasında apardığı islahatlar və iri layihələr təhlil edilmişdir. Ölkənin tranzit potensialının yüksək olmasının strateji aspektləri əsaslandırılmışdır. Yaxın və uzaq perspektivdə Azərbaycanın nəqliyyat-logistika sisteminin regional və qlobal rolu üzrə təkliflər hazırlanmışdır.
**Tədqiqatın metodu formasında** – analiz, sintez, müqayisə, statistik təhlil və proqnozlaşdırma metodlarından istifadə edilmişdir. Bunlarla bərabər, nəqliyyat-logistika problemlərinə dair tədqiqatlar aparmış, müxtəlif ölkə və xarici tədqiqatçılarının əsərlərinə diqqət yetirilmişdir.
**Tədqiqatın nəticələri** – məqalədə verilmiş təkliflərdən regional və qlobal səviyyədə nəqliyyat-logistika sistemindən səmərəli istifadə edilməsi üzrə əlavə tədbirlərin və layihələrin hazırlanmasında istifadə oluna bilər.

**Açar sözlər:** Azərbaycan, qlobal kontekst, regional çağırışlar, nəqliyyat-logistika sistemi, qlobal nəqliyyat dəhlizləri, tranzit-nəqliyyat potensialı.

## Giriş

Son onilliklərdə qlobal iqtisadi sistemdə baş verən dəyişikliklər beynəlxalq ticarət dəhlizlərinin və nəqliyyat-logistika şəbəkələrinin strateji əhəmiyyətini xeyli dərəcədə artırmışdır. Müxtəlif regionlar arasında iqtisadi, ticarət və sosial münasibətlərin inkişafı yalnız səmərəli nəqliyyat-logistika sisteminin mövcudluğu ilə mümkündür. Bu baxımdan qlobal dəhlizlər beynəlxalq ticarətin, regional inteqrasiyanın və iqtisadi inkişafın əsas dayaqlarından biri kimi çıxış edir. Qlobal dəhlizlər ölkələri və regionları bir-birinə bağlayan, malların, xidmətlərin və bəzən də insan axınının sürətli və təhlükəsiz şəkildə hərəkətini təmin edən kompleks nəqliyyat-logistika sistemləridir.

Nəqliyyat-logistika sistemlərinin inkişafı qlobal iqtisadiyyatın əsas dayaqlarından biri hesab olunur. İqtisadiyyatın rəqəmsallaşması nəticəsində müxtəlif sahələr arasında əlaqələr daha da sürətlənir və bu proses nəqliyyat sektorunun davamlı şəkildə yenilənməsini və təkmilləşdirilməsini zəruri edir. Çünki, beynəlxalq və daxili bazarların inkişafı malların və resursların maneəsiz və sərbəst hərəkəti ilə sıx bağlıdır. Məhz buna görə, səmərəli və müasir nəqliyyat-logistika sistemləri formalaşdıran ölkələr qlobal bazarda daha güclü rəqabət aparmaq imkanına malik olurlar [1, s.2 ].

Dünya iqtisadiyyatının qloballaşdığı, istehsal və istehlak zəncirlərinin coğrafi baxımdan genişləndiyi bir şəraitdə ölkələr arasında yük və sərnişin daşımalarının intensivliyi artmışdır ki, bu da nəqliyyat-logistika infrastrukturunun səmərəliliyini dövlətlərin iqtisadi inkişaf strategiyalarının əsas komponentlərindən birinə çevirmişdir. Bu kontekstdə Avrasiya məkanında

yerləşən Azərbaycan öz geosiyasi və geoiqtisadi mövqeyi sayəsində beynəlxalq nəqliyyat dəhlizlərinin formalaşmasında və fəaliyyətində önəmli rol oynayan ölkələrdən biri kimi çıxış edir. Xəzər hövzəsində yerləşən və Avropa ilə Asiyanı birləşdirən təbii tranzit mövqeyinə malik olan Azərbaycan regional və qlobal nəqliyyat-logistika sistemlərinin inkişafında aktiv iştirak edir və bu istiqamətdə son illərdə genişmiqyaslı infrastruktur layihələri reallaşdırmışdır.

## Azərbaycanın nəqliyyat-logistika sisteminin müasir vəziyyətinin təhlili

Azərbaycanda nəqliyyat-logistika sisteminin inkişafı baxımından son illərdə reallaşdırılan strateji layihələr xüsusi önəm daşıyır. Burada yalnız müasir avtomobil yollarının inşası və infrastrukturun təkmilləşdirilməsi deyil, həmçinin beynəlxalq nəqliyyat qovşaqlarının mərkəzində effektiv fəaliyyət göstərən yeni nəqliyyat-logistika infrastrukturunun yaradılması məsələsi aktuallaşır. Bu təşəbbüslər ölkənin nəqliyyat sisteminin səmərəliliyini artırmaq və beynəlxalq əlaqələrdə strateji üstünlük təmin etmək baxımından mühüm rol oynayır.

Azərbaycanda nəqliyyat-logistika sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinin sayı 70 mindən çoxdur və mövcud statistik göstəricilər bu müəssisələrin ildə 1 milyard manatdan artıq əlavə dəyər yaratdığını göstərir. Bu fakt sektorun ölkə iqtisadiyyatında mühüm rol oynadığını nümayiş etdirir. Buna baxmayaraq, sahənin inkişafına təsir edən bir sıra çətinliklər də mövcuddur. Xüsusilə əməliyyat xərclərinin yüksək olması, rəqəmsal texnologiyaların tətbiqinin kifayət qədər geniş yayılmaması və peşəkar, ixtisaslı kadrların çatışmazlığı sektorun mövcud potensialından tam istifadə olunmasına mane olur. Həmçinin, Azərbaycanın beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin gücləndirilməsi və nəqliyyat daşımalarının həcminin 2030-cu ilə qədər 50 milyon tona çatdırılması kimi strateji məqsədlərə nail olmaq üçün nəqliyyat dəhlizləri üzrə əlavə dəyər yaradan fəaliyyətlərin genişləndirilməsi prioritet istiqamətlərdən biri kimi qiymətləndirilir [2, s.1]. Çünki, bu, ölkənin qlobal dəhlizlərdə iştirakının gücləndirilməsi baxımından önəmlidir.

Azərbaycanın nəqliyyat-logistika sistemi müxtəlif nəqliyyat növlərinin, o cümlədən, avtomobil, dəmir yolu, dəniz və hava nəqliyyatının qarşılıqlı inteqrasiyası əsasında formalaşmışdır. Bu sistemin inkişafında dövlət siyasəti önəmli rol oynamışdır. Nəqliyyat-logistika sistemlərinin fəaliyyətinin əsas məqsədi məhsul və material axınlarının istehsalçıdan istehlakçıya qədər mümkün qədər səmərəli, sürətli və etibarlı şəkildə hərəkətini təmin etməkdir. Bu sistemlər malların daşınması, saxlanması və paylanması proseslərini bir-biri ilə əlaqələndirərək iqtisadi fəaliyyətin fasiləsiz davam etməsinə xidmət edir. Əsas məqsədlərdən biri də daşınma və logistika xərclərini minimuma endirməklə yanaşı, xidmət keyfiyyətini yüksək səviyyədə saxlamaqdır. Bunun üçün nəqliyyat vasitələrinin optimal seçilməsi, marşrutların düzgün planlaşdırılması və yük axınlarının balanslaşdırılması mühüm rol oynayır

Məlumdur ki, logistika şirkətlərinin qarşısında duran əsas vəzifələrdən biri nəqliyyat-logistika sistemlərinin fəaliyyətinin səmərəliliyinin düzgün şəkildə qiymətləndirilməsidir. Bu qiymətləndirmə xüsusilə xərclərin azaldılması və nəqliyyat-logistika proseslərinin daha səmərəli təşkil olunması baxımından böyük önəm daşıyır. Fəaliyyətin səmərəliliyinin təhlili logistika proseslərinin dərindən araşdırılmasına şərait yaradır və bu da mövcud çatışmazlıqların aşkar edilərək aradan qaldırılmasına kömək edir. Həmçinin, belə təhlil nəticəsində fəaliyyətin məhsuldarlığını artırmaq, daha keyfiyyətli proqram və planlar hazırlamaq, əlavə ehtiyat mənbələrini müəyyənləşdirmək və daha əsaslandırılmış idarəetmə qərarları qəbul etmək mümkün olur. Nəqliyyat-logistika sistemlərinin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi hər bir logistika şirkəti üçün inkişaf istiqamətlərini və gələcək strategiyasını müəyyənləşdirməyə imkan verən vacib əsaslardan biri hesab olunur [3, s.264].

Qlobal dəhlizlər kontekstində Azərbaycanın nəqliyyat-logistika sisteminin səmərəliliyi bir neçə əsas meyar əsasında qiymətləndirilə bilər. Bu meyarlara nəqliyyat infrastrukturunun inkişaf səviyyəsi, logistika xidmətlərinin keyfiyyəti, tranzit prosedurlarının sadəliyi, gömrük əməliyyatlarının sürəti, daşımaların

vaxtında reallaşdırılması və logistika xərclərinin optimallaşdırılması daxildir. Müasir dövrdə logistika sisteminin səmərəliliyi yalnız fiziki infrastrukturun mövcudluğu ilə deyil, həmçinin rəqəmsal texnologiyaların tətbiqi, idarəetmə mexanizmlərinin çevikliyi və beynəlxalq əməkdaşlıq səviyyəsi ilə müəyyənləşdirilir.

2024-cü ildə avtomobil nəqliyyatı ilə daşınan yüklərin həcmi 143477 min ton təşkil etmiş və əvvəlki illərlə müqayisədə xeyli dərəcədə artmışdır. Belə ki, 2020-ci ilə görə bu göstərici 31959 min ton və ya 28,7%, 2023-cü ilə görə isə 9261 min ton və ya 6,9% çox olmuşdur. Bu dinamika ölkədə avtomobil nəqliyyatının daha çevik, əlçatan və geniş istifadə olunan nəqliyyat növü olduğunu göstərir. Xüsusilə daxili yükdaşımalar, regionlararası ticarət əlaqələri və logistika xidmətlərinin genişlənməsi avtomobil nəqliyyatının payının artmasına səbəb olmuşdur.

Qlobal iqtisadi sistemə qoşulmaq üçün nəqliyyat sektorunun bütün istiqamətlər üzrə inkişafı böyük önəm daşıyır. Bunun üçün hava, dəniz, dəmir və avtomobil nəqliyyatını əhatə edən infrastrukturun modernləşdirilməsi və genişləndirilməsi vacib sayılır. Belə tədbirlərin əsas məqsədi insanların və yüklərin daşınmasını daha rahat və sürətli etməkdir ki, bu da nəticədə ticarətin genişlənməsinə və iqtisadi inkişafın güclənməsinə şərait yaradır. Məsələn, yolların və dəmir yolu xətlərinin yenilənməsi, həmçinin limanların təkmilləşdirilməsi məhsulların bazarlara çatdırılmasını və oradan daşınmasını daha səmərəli edir. Həmçinin, hava nəqliyyatının inkişafı sərnişinlərin və yüklərin hərəkət imkanlarını artıraraq beynəlxalq əlaqələrin genişlənməsinə kömək göstərir [4, s.8].

Nəqliyyat-logistika sisteminin səmərəli fəaliyyəti üçün daha çevik mexanizmlərə malik olmaq lazımdır. Belə mexanizmlərdən ən əsası kimi maliyyə təminatı mexanizmidir. Nəqliyyat-logistika sisteminin səmərəli fəaliyyəti üçün sabit maliyyə dövriyyəsini təmin etmək üçün milli qanunvericiliklə tənzimlənən və beynəlxalq təcrübədə müəyyən edilmiş forma və mexanizmlərdən istifadə etmək vacibdir [5, s.321]. Bu yolla nəqliyyat infrastrukturunun vaxtında yenilənməsi və müasirləşdirilməsi mümkündür.

Nəqliyyat infrastrukturun yenilənməsi və müasirləşdirilməsi logistika sistemlərinin daha səmərəli şəkildə təşkil olunmasına imkan yaradır. Bu proses nəticəsində daşınma xərcləri azalır və ölkə iqtisadiyyatının rəqabət qabiliyyəti güclənir. Habelə, ağıllı texnologiyalarla təchiz olunmuş infrastruktura qoyulan investisiyalar nəqliyyat sektorunda məhsuldarlığın xeyli dərəcədə yüksəlməsinə şərait yaradır. Azərbaycanın coğrafi mövqeyi də bu baxımdan xüsusi üstünlük verir.

**Qlobal şəraitdəAzərbaycanın nəqliyyat-logistika sisteminin inkişaf istiqamətləri**

Azərbaycan, Avropa ilə Asiya arasında yerləşdiyinə görə beynəlxalq ticarət dəhlizlərində mühüm tranzit rolunu oynayır və qlobal təchizat zəncirlərinə qoşulmaq üçün əlverişli imkanlar yaradır. Bu mövqe yük daşımalarının və logistika mərkəzlərinin inkişafı üçün təbii potensial formalaşdırır. Dəmir yolu xətlərinin genişləndirilməsi və avtomobil yollarının sıxlığının artırılması regionlararası əlaqələri gücləndirir, əlçatanlığı yaxşılaşdırır, sərnişin və yük daşımalar üçün daha effektiv nəqliyyat sisteminin formalaşmasına kömək edir. Ümumilikdə, nəqliyyat infrastrukturuna yönəldilən investisiyaların artması ölkənin gələcək iqtisadi inkişafı üçün mühüm stimul rolunu oynaya bilər [6, s.598]. Həmçinin, rəqəmsal logistika həllərinin tətbiqi, nəqliyyat infrastrukturunun inkişafı və tranzit imkanlarının genişləndirilməsi Azərbaycanın regional nəqliyyat qovşağı kimi mövqeyinin möhkəmlənməsinə də müsbət təsir göstərə bilər. Bu istiqamətdə reallaşdırılacaq tədbirlər iqtisadi səmərəliliyin yüksəldilməsinə, yükdaşımaların daha dayanıqlı və səmərəli təşkilinə şərait yaradacaqdır.

Azərbaycanın nəqliyyat-logistika sisteminin səmərəliliyini artıran mühüm amillərdən biri beynəlxalq nəqliyyat dəhlizlərində iştirakının gücləndirilməsidir. Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərində iştirakının əsas istiqamətlərindən biri Avropa ilə Asiya arasında yük daşımalarını təmin edən Şərq-Qərb dəhlizidir. Azərbaycanın Şərq–Qərb nəqliyyat dəhlizində iştirakı ölkənin müasir iqtisadi strategiyasının ən önəmli istiqamətlərindən biri hesab olunur. Şərq–Qərb nəqliyyat dəhlizi, digər adı ilə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu və ya Orta Dəhliz, Çin və Mərkəzi Asiya ölkələrindən başlayaraq Xəzər dənizi vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyə

üzərindən Avropaya uzanan beynəlxalq multimodal nəqliyyat sistemidir. Bu dəhliz dəmir yolu, avtomobil və dəniz nəqliyyatı elementlərini birləşdirərək Avrasiya məkanında yükdaşımaların sürətli və səmərəli şəkildə reallaşdırılmasına xidmət edir.

Şərq–Qərb dəhlizi dünya iqtisadiyyatı üçün strateji önəm daşıyan ticarət yollarından biridir. Bu dəhlizin əhəmiyyəti onun Asiya və Avropa kimi iki böyük iqtisadi mərkəzi birləşdirməsi ilə bağlıdır. Ənənəvi marşrutlardan fərqli olaraq Şərq-Qərb dəhlizi daha qısa məsafəni əhatə edir və daşımaların vaxtını xeyli dərəcədə azaldır. Məsələn, Çin ilə Avropa arasında yük daşınması Süveyş kanalı vasitəsilə reallaşdırıldıqda təxminən 30–45 gün çəkə bildiyi halda, Şərq–Qərb dəhlizi vasitəsilə bu müddət orta hesabla 12–18 gün təşkil edir. Bu isə qlobal logistika sistemində həmin dəhlizin rəqabət qabiliyyətini artırır və xüsusilə yüksək dəyərli və vaxt baxımından həssas yüklər üçün daha əlverişli seçim yaradır.

2025-ci ildə Şərq-Qərb dəhlizi üzrə yükdaşımaların ümumi həcmi əvvəlki illərlə müqayisədə müəyyən qədər azalmışdır. Belə ki, 2025-ci ilin göstəriciləri 2023-cü ilə görə 473,5 min ton və ya 2,7%, 2024-cü ilə görə isə 72,6 min ton və ya 0,4% azalma nümayiş etdirir. Bu göstəricilər onu deməyə əsas verir ki, son iki il ərzində dəhliz üzrə yük axınında nisbi sabitlik qorunsa da, ümumi dinamika azalma istiqamətində dəyişmişdir. Xüsusilə 2024-cü ildən 2025-ci ilə keçid dövründə azalma səviyyəsinin cəmi 0,4% olması, dəhliz üzrə yük axınının kəskin deyil, daha çox minimal səviyyədə azaldığını göstərir. Qeyd edək ki, 2024-cü ildə Şərq-Qərb dəhlizi ilə daşınan yüklərin 8173,2 min tonu və ya 48,3%-i Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin payına düşmüşdür. Məlumatların təhlili göstərir ki, Şərq-Qərb dəhlizi üzrə ən yüksək yükdaşımalar 2023-cü ildə qeydə alınmışdır. Həmin ildə dəhliz vasitəsilə daşınan yüklərin ümumi həcmi 17383,3 min ton təşkil etmişdir. Bu göstərici dəhlizin regional və beynəlxalq tranzit daşımalarında önəmli rol oynadığını və həmin dövrdə logistik fəaliyyətin daha intensiv olduğunu göstərir. Həmçinin, yüksək yük dövriyyəsi maliyyə nəticələrinə də müsbət təsir etmişdir. Belə ki, 2023-cü ildə bu daşımalar hesabına əldə edilən gəlirlərin həcmi 324,6 milyon AZN olmuşdur ki, bu da yükdaşımaların iqtisadi səmərəliliyinin yüksək olduğunu göstərir. Ümumilikdə aparılan təhlil göstərir ki, baxmayaraq ki, 2025-ci ildə yükdaşımaların həcmi əvvəlki illərlə müqayisədə müəyyən qədər azalmışdır, dəhliz üzrə yük axını hələ də yüksək səviyyədə qalmaqdadır. Bu isə Şərq-Qərb nəqliyyat dəhlizinin regional ticarət əlaqələrinin inkişafında və tranzit potensialının reallaşdırılmasında önəmli rol oynamağa davam etdiyini göstərir.

Azərbaycanın nəqliyyat-logistika sistemində önəmli rol oynayan əsas layihələrdən biri Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttidir. Bu xətt Asiya ilə Avropa arasında yük daşımalarının daha sürətli və təhlükəsiz reallaşdrılmasına imkan yaradır və əsas üstünlüyü ondan ibarətdir ki, alternativ nəqliyyat yolları ilə müqayisədə yük daşınması üçün daha qısa vaxt tələb olunur və geosiyasi risklər daha azdır.

BTQ xəttinin istifadəsi Azərbaycanın nəqliyyat-logistika sistemində bir neçə mühüm aspekti gücləndirir. Birincisi, bu xətt Azərbaycanı beynəlxalq tranzit şəbəkələrində önəmli iştirakçıya çevirir. Ölkə yalnız Xəzər dənizi üzrə daşımalarla məhdudlaşmayıb, həmçinin Avropa və Asiya arasında quru tranzit marşrutu təklif edə bilir. Bu, Azərbaycanın strateji coğrafi mövqeyindən maksimum dərəcədə istifadə etmək də deməkdir. Belə ki, ölkə Şərq-Qərb dəhlizində qonşu Gürcüstan və Türkiyə ilə birlikdə inteqrasiya olunmuş nəqliyyat-logistika xidmətləri təqdim edir. İkincisi, BTQ dəmiryol xəttinin fəaliyyəti ölkənin multimodal logistik sistemini gücləndirir. İnteqrasiya olunan infrastruktura Bakı Beynəlxalq Dəniz Ticarət Limanı (BTDL) və digər logistika mərkəzlərinin qoşulması yükdaşımaların səmərəliliyini artırır. Bu, nəqliyyat xərclərinin optimallaşdırılması, yüklərin çatdırılma müddətlərinin qısaldılması və müştəri tələblərinə daha uyğun xidmətlərin göstərilməsi baxımından önəmlidir. Üçüncüsü, BTQ, beynəlxalq ticarətdə Azərbaycanın rolunu gücləndirir. Bu dəmir yolu xətti Çin-Avropa arasında quru yüklərin daşınması üçün dəniz marşrutlarına alternativ təklif edir və çatdırılma müddətini xeyli azaldır ki, bu da vaxt baxımından həssas malların tranzitində vacib üstünlükdür.

Azərbaycanın strateji mövqeyini daha da gücləndirən BTQ dəmir yolu xəttinin genişləndirilməsi, ölkənin regional və qlobal əhəmiyyətini açıq şəkildə ortaya qoyur. Bu layihə vasitəsilə Azərbaycan yalnız tranzit imkanlarını maksimum dərəcədə reallaşdırmır, həmçinin bölgədə davamlı sülh, əməkdaşlıq və iqtisadi rifahın təmin edilməsində əsas rol oynayır. BTQ-nin gələcək perspektivləri nəzərə alındıqda, Azərbaycanın bu nəqliyyat dəhlizində texniki, iqtisadi və diplomatik sahələrdə lider mövqeyini qoruyub saxlaması ehtimalı olduqca yüksəkdir [7, s.47].

Qeyd edək ki, Xəzər dənizinin qərb sahilində yerləşən BTDL, regionun ən böyük logistika mərkəzlərindən biri hesab olunur. Bu liman multimodal daşımaların təşkili üçün əlverişli imkanlar yaradır və dəmir yolu, avtomobil və dəniz nəqliyyatının inteqrasiyasını təmin edir. Limanın yükötürmə qabiliyyətinin artırılması və müasir logistika texnologiyalarının tətbiqi Azərbaycanın qlobal nəqliyyat şəbəkəsində rolunu daha da gücləndirir. Limanın Ələt qəsəbəsi yaxınlığında yerləşməsi onun beynəlxalq nəqliyyat dəhlizləri ilə inteqrasiyasını daha da gücləndirir. Buradan keçən yük axınları quru və dəniz nəqliyyatı vasitəsilə müxtəlif istiqamətlərə paylanır. Xüsusilə Avropa ilə Asiya arasında əlaqəni təmin edən Orta Dəhliz çərçivəsində limanın rolu getdikcə artır.

BTDL, xüsusi iqtisadi zona statusuna malik iri nəqliyyat-logistika mərkəzi kimi fəaliyyət göstərir. Bu liman gələcək perspektivdə yükdaşımaların həcmini əhəmiyyətli dərəcədə artırmaq potensialına sahibdir. Habelə, ölkə iqtisadiyyatının müxtəlif sahələrinin inkişafına töhfə verərək xammal təminatının gücləndirilməsinə və istehsal olunan hazır məhsulların ixrac imkanlarının genişlənməsinə şərait yaradır [8, s.6]. Statistik göstəricilər limanın fəaliyyətinin son illərdə dinamik şəkildə artdığını göstərir. 2023-cü ildə liman vasitəsilə təxminən 7,3 milyon ton yük daşınmışdır ki, bu da özündən əvvəlki ilə görə 16,0% artım deməkdir. 2024-cü ildə isə yük dövriyyəsi 7,6 milyon tona çatmışdır. Eyni dövrdə konteyner daşımalarında da əhəmiyyətli artım müşahidə olunmuş və 2024-cü ildə limanda 76775 TEU konteyner emal edilmişdir. Bu göstərici özündən əvvəlki ilə görə təxminən 73,0% artım deməkdir və limanın konteyner logistikasında rolunun sürətlə gücləndiyini göstərir. Konteyner daşımalarının inkişafı limanın logistika sistemindəki rolunu daha da gücləndirmişdir. 2020-ci ildə limanda cəmi 40345 TEU konteyner emal olunmuşdursa, 2024-cü ildə bu göstərici 76775 TEU-ya çatmışdır. 2025-ci ildə isə konteyner dövriyyəsinin 100 min TEU həddini keçməsi qeydə alınmışdır.

Zəngəzur dəhlizi Azərbaycanın nəqliyyat-logistika sisteminin səmərəliliyinin yüksəldilməsində mühüm amillərdən biri kimi qiymətləndirilir. Dəhlizin fəaliyyətə başlaması ölkənin tranzit potensialının artmasına, regional inteqrasiyanın güclənməsinə və nəqliyyat şəbəkələrinin daha effektiv istifadəsinə şərait yarada bilər. Zəngəzur dəhlizinin açılması nəqliyyat-logistika sahəsində infrastruktur layihələrinin bir-biri ilə daha səmərəli əlaqələndirilməsinə və mövcud nəqliyyat şəbəkəsinin tamamlanmasına imkan verə bilər.

Zəngəzur dəhlizi Azərbaycanın əsas ərazisi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa quru əlaqəsinin bərpasını nəzərdə tutur. Bu əlaqənin yaradılması ölkədaxili nəqliyyat sisteminin bütövlüyünü təmin etməklə yanaşı, yük və sərnişin daşımalarının daha qısa marşrutlarla reallaşdırılmasına imkan yarada bilər. Hazırda Naxçıvanla əlaqələrin əsasən hava və ya alternativ marşrutlar vasitəsilə reallaşdırılması əlavə vaxt və maliyyə xərcləri tələb edir. Yeni dəhlizin istifadəyə verilməsi isə logistika xərclərinin azalmasına, daşımaların sürətinin artmasına və nəqliyyat xidmətlərinin keyfiyyətinin yüksəlməsinə səbəb ola bilər. Bu dəhlizin əhəmiyyəti yalnız daxili nəqliyyat əlaqələri ilə məhdudlaşmır. Zəngəzur dəhlizinin reallaşdırılması logistika əməliyyatlarının optimallaşdırılmasına da müsbət təsir göstərə bilər [9]. Nəqliyyat marşrutlarının qısalması yükdaşımaların müddətini azaldaraq logistika zəncirinin daha çevik və effektiv fəaliyyət göstərməsinə imkan yaradır. Bu, beynəlxalq ticarət iştirakçıları üçün əlavə üstünlüklər yaradar, çünki daşımaların sürətli və etibarlı şəkildə reallaşdırılması biznes mühitinin cəlbediciliyini artırar.

Dəhlizin iqtisadi təsirlərindən biri də yeni investisiya imkanlarının yaranması ilə bağlıdır. Nəqliyyat-logistika infrastrukturlarının genişlənməsi regionlarda iqtisadi aktivliyin

artmasına, yeni sənaye və xidmət sahələrinin formalaşmasına şərait yarada bilər. Logistika mərkəzlərinin, anbar komplekslərinin və nəqliyyat xidmətləri ilə bağlı müəssisələrin yaradılması isə məşğulluğun artmasına və regional inkişafın sürətlənməsinə müsbət təsir göstərə bilər. Bu baxımdan Zəngəzur dəhlizi yalnız tranzit layihəsi deyil, həmçinin sosial-iqtisadi inkişafın stimullaşdırılması vasitəsi kimi qiymətləndirilir. Göründüyü kimi, Zəngəzur dəhlizinin reallaşdırılması Azərbaycanın nəqliyyat-logistika sisteminin inkişafı baxımından mühüm perspektivlər yaratmaq imkanlarına malikdir [10].

Nəqliyyat-logistika sistemlərinin fəaliyyətini yaxşılaşdırmaq üçün müxtəlif tədbirlər görülə bilər. Bu tədbirlər arasında ən önəmli addımlardan biri gömrük prosedurlarının təkmilləşdirilməsidir. Gömrük keçidlərinin və prosedurların rəqəmsallaşdırılması prosesin sürətini artıraraq müsbət təsir göstərmək imkanlarına malikdir. Habelə, bürokratik maneələrin azaldılması, məsələn, bir pəncərə sisteminin tətbiqi, gömrük fəaliyyətinin səmərəliliyi yüksəldə bilər. Logistika proseslərinin effektivliyini artırmaq üçün infrastrukturun gücləndirilməsi də vacibdir. Bununla əlaqədar olaraq, avtomobil, dəmir yolu və hava nəqliyyatı arasındakı əlaqələrin inkişaf etdirilməsi nəqliyyat-logistika sisteminin təkmilləşdirilməsi baxımından önəmlidir [11, s.127].

Qloballaşma kontekstində beynəlxalq nəqliyyat dəhlizləri təkcə marşrut kimi deyil, həmçinin vahid dəyər zəncirinin tərkib hissəsi kimi çıxış edir. Bu sistemdə daşınma xərcləri son məhsulun qiymətinə birbaşa təsir göstərərək yeni iqtisadi dəyərin formalaşmasına səbəb olur. Həmin dəyərin yaranmasında isə dəhliz boyunca yerləşən hər bir ölkənin müəyyən rolu və payı mövcuddur. Nəticədə ortaya çıxan iqtisadi dəyər insanların sosial rifahına və layiqli həyat səviyyəsinin təmin olunmasına xeyli təsir göstərə bilir.

Məlumdur ki, yük daşımalarında məsafə və vaxt artdıqca xərclər də mütənasib şəkildə yüksəlir. Buna görə nəqliyyat dəhlizlərinin daha qısa və əlverişli istiqamətlərdən keçməsi, yüklərin yüklənməsi və boşaldılması proseslərinin sürətlə təşkili, həmçinin bu sahədə rəqəmsal texnologiyaların tətbiqi daşınma müddətinin azaldılması baxımından xüsusi önəm daşıyır. Başqa sözlə, məsafəni azaltmaq həmişə mümkün olmasa da, iştirakçı dövlətlər logistika proseslərini optimallaşdırmaqla və vaxt itkisini minimuma endirməklə daşınma xərclərinə təsir göstərə bilərlər. Bu isə ümumilikdə nəqliyyat dəhlizinin effektivliyini və rəqabət qabiliyyətini müəyyənləşdirən əsas amillərdən biridir, çünki belə dəhlizlərin uğurlu fəaliyyəti bütün iştirakçı ölkələrin koordinasiyalı və səmərəli fəaliyyətindən asılıdır [12, s.31].

## Nəticə

Beləliklə, qlobal dəhlizlər kontekstində Azərbaycanın nəqliyyat-logistika sisteminin mövcud vəziyyəti göstərir ki, ölkə regional tranzit mərkəzi kimi mövqeyini getdikcə gücləndirir. İnfrastrukturun modernləşdirilməsi, beynəlxalq nəqliyyat layihələrində fəal iştirak və logistika xidmətlərinin inkişafı Azərbaycanın qlobal ticarət şəbəkəsində rolunu artırır.

Gələcəkdə nəqliyyat infrastrukturunun daha da inkişaf etdirilməsi, logistika xidmətlərinin diversifikasiyası və rəqəmsal texnologiyaların geniş tətbiqi Azərbaycanın qlobal logistika zəncirində rolunun güclənməsinə və ölkənin iqtisadi inkişafına mühüm töhfə verə bilər. Odur ki, aşağıdakı istiqamətlərdə tədbirlərin görülməsini məqsədəuyğun hesab etmək olar:

- Multimodal logistika sistemlərinin daha geniş şəkildə inkişaf etdirilməsi və müxtəlif nəqliyyat növləri arasında inteqrasiyanın gücləndirilməsi. Bu, ölkənin regional və qlobal logistika zəncirində strateji rolunu gücləndirəcək və yük daşımalarının sürətini və çevikliyini artıra bilər.
- Rəqəmsal logistika platformalarının tətbiqinin genişləndirilməsi, yük izləmə sistemləri və elektron sənəd dövriyyəsinin tam şəkildə inteqrasiyasının təmin edilməsi. Logistika proseslərinin tam rəqəmsallaşdırılması, elektron sənəd dövriyyəsi, yük izləmə və məlumat analitikası sistemlərinin tətbiqi ölkədə daşımaların şəffaflığını və effektivliyini yüksəldə bilər. Rəqəmsal platformalar vasitəsilə proseslərin avtomatlaşdırılması, həmçinin məlumatların real vaxtda paylaşılması logistika sahəsində səhvlərin və gecikmələrin qarşısını almağa imkan verər;

- Logistika sahəsində ixtisaslaşmış kadr hazırlığının gücləndirilməsi və bu sahədə beynəlxalq təcrübənin tətbiqi. Bu, peşəkar və bacarıqlı işçi qüvvəsinin formalaşmasını təmin edərək ölkənin logistika sisteminin inkişafında strateji önəm daşıyır. Bu yanaşma, həmçinin əməliyyatların keyfiyyətini yüksəldir, beynəlxalq standartlarla uyğunluğu təmin edərək ölkənin regional və qlobal logistika sahəsində rəqabət qabiliyyətini artırır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Gulıyeva, J. Drivers of development of the transport and logistics system in Azerbaijan in the context of world experience. World Conference on Emerging Science, Innovation and Policy 2025. Futurity Research Publishing, 2025, p.1-11.
2. Ağayev Z.A. Azərbaycanda tranzit marşrutların üzərində əlavə dəyərlərin yaradılması. s.1-10.
3. Quliyeva C.E. Azərbaycanda nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi istiqamətləri. Elmi Xəbərlər № 1, 2025, s.263-269.
4. Dadaşlı R., Valiyev O. Debating on Transport Corridors of Azerbaijan in the Context of Globalization. Universal Journal of History and Culture, Vol. 6, No. 1, 2024, 1-20.
5. Bağırov, M. (2023). Azerbaycan Ulaşım ve Lojistik Sistemi Uluslararası Düzey: Tarihsel Yaklaşım, Mevcut Gerçekler ve Perspektifler". Iğdır Üniversitesi Sosyal Bilimler Dergisi. (33): 312-326.
6. Samadova M., Nazira Huseynova N., Hajigayibova A. (2025). Assessing the development of transport and logistics sector in Azerbaijan and the impact of transport investment: cross-country analysis. Problems and Perspectives in Management, 23(1), 597-619.
7. Əliyev Ş.T. Qlobal nəqliyyat dəhlizlərinin genişləndirilməsində Azərbaycanın strateji rolu. "Yeni reallıqlar şəraitində Azərbaycanın iqtisadi və sosial inkişafı: problemlər, çağırışlar, perspektivlər" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı: Kooperasiya nəşriyyatı, 6 dekabr 2025, s.44-52.
8. Əliyev Ş.T. Azərbaycanda nəqliyyat sektorunun müasir vəziyyəti və inkişaf potensialı. AMEA İqtisadiyyat İnstitutu. Elmi əsərlər, 2018, №2, s.5-11.
9. Алиев, Ш.Т., Панахалиева, М.О., Солтанов, С. Роль Зангезурского коридора в усилении логистическо-транспортной инфраструктуры в регионе / I International Scientific and Practical Conference Recent Advances in Global Science held in Vilnus, Lithuania and for publishing as cientific article, August16-18, 2022. – с. 15-20.
10. Əliyev, Ş.T. Zəngəzur qlobal nəqliyyat dəhlizinin Türk dövlətlərinin iqtisadi inteqrasiyasında strateji funksiyaları / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş "Heydər Əliyev və müasir türk dünyası" beynəlxalq elmi-praktik konfransın. AKU, Bakı, 2 may 2023. Google Scholar: https://scholar.google.com/citations?user=iLFtk9wAAAAJ&hl=ru.
11. Öztürkçü, N., (2025). Evaluation of the Logistics Performance of North, Middle and South Corridor. Countries within the Scope of the One Belt One Road Initiative Using Hybrid MCDM Methods. Dokuz Eylül University Journal of Faculty of Business, 26, Special Issue on Global Trade and Türkiye's Transport Diplomacy, 107-133.
12. Əsədov A.M., Dadaşov Ə.Ə. Beynəlxalq nəqliyyat dəhlizləri: milli və qlobal çağırışlar. "İqtisadi islahatlar" elmi-analitik jurnal, 1(12), 2025, s.25-39.

## GLOBAL ASPECTS OF AZERBAIJAN'S TRANSPORT AND LOGISTICS SYSTEM

**Shafa Tiflis ALIYEV**
Professor at Sumgait State University.
Head of the UNEC Centre for Karabakh Economic Research.
Azerbaijan, Sumgait 43rd Quarter, Baku str.1
E-mail: shafa.aliyev@sdu.edu.az

**Abstract:** *Purpose of the study* – The article examines the global aspects of the transport and logistics system of Azerbaijan. The role and importance of the transport and logistics system in the country's economy are examined. The reforms and major projects carried out by Azerbaijan in the transport and logistics sphere in recent years are analyzed. The strategic aspects of the country's high transit potential are substantiated. Proposals are made on the regional and global role of the transport and logistics system of Azerbaijan in the near and long term.

*The research method used* was analysis, synthesis, comparison, statistical analysis and forecasting. In addition, studies were conducted on transport and logistics problems, and attention was paid to the works of various domestic and foreign researchers.

*The results of the study* - the proposals presented in the article - can be used in the development of additional measures and projects for the effective use of the transport and logistics system at the regional and global levels.

**Key words*:*** Azerbaijan, global context, regional challenges, transport-logistics system, global transport corridors, transit-transport potential.

## ГЛОБАЛЬНЫЕ АСПЕКТЫ ТРАНСПОРТНОЙ И ЛОГИСТИЧЕСКОЙ СИСТЕМЫ АЗЕРБАЙДЖАНА

**Шафа Тифлис АЛИЕВ**
Профессор Сумгаитского Государственного Университета, д.э.н.
Руководитель Центра Исследования Экономики Карабаха UNEC.
Азербайджан, город Сумгаит 43-й квартал, ул.Баку, 1.
E-mail: shafa.aliyev@sdu.edu.az

**Резюме :** ***Цель исследования*** – В статье рассматриваются глобальные аспекты транспортно-логистической системы Азербайджана. Анализируется роль и значение транспортно-логистической системы в экономике страны. Рассматриваются реформы и крупные проекты, реализованные Азербайджаном в транспортно-логистической сфере в последние годы. Обосновываются стратегические аспекты высокого транзитного потенциала страны. Предлагаются варианты региональной и глобальной роли транспортно-логистической системы Азербайджана в краткосрочной и долгосрочной перспективе.

***В качестве метода исследования*** использовались анализ, синтез, сравнение, статистический анализ и прогнозирование. Кроме того, были проведены исследования проблем транспорта и логистики, а также уделено внимание работам различных отечественных и зарубежных исследователей.

***Результаты исследования*** – предложения, представленные в статье, — могут быть использованы при разработке дополнительных мер и проектов для эффективного использования транспортно-логистической системы на региональном и глобальном уровнях.

***Ключевые слова*:** Азербайджан, глобальный контекст, региональные вызовы, транспортно-логистическая система, глобальные транспортные коридоры, транзитно-транспортный потенциал.

.